**HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR**
**HUMANITIES AND SOCIAL SCIENCES**

DOI: https://doi.org/10.36719/2663-4619/117/9-13

**Sevinc Kərimova**
Bakı Slavyan Universiteti
filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0003-5061-8968
sevinc.karimova.1985@mail.ru

# Ara söz və ara cümlələrə kommunikativ və pradiqmatik yanaşma

**Xülasə**

Müasir tədqiqatçılar kommunikativ kateqoriyanın ən vacib ünsürlərindən olan modallıq kateqoriyasını ön plana çəkir və ara cümləlləri (konstruksiyaları) onların ən başlıca ifadə imkanı kimi göstərirlər. Tədqiqatçıların bu sahəyə - sintaksisin kommunikativ aspektdən öyrənilməsinə marağı müasir dildə ekstralinqvistik faktorlara önəm verməklə əlaqələndirirlər.

Bu istiqamət bir sıra dilçilik sahələrində olduğu kimi modallıq məsələsində də aktuallıq kəsb etməyə başlamışdır. Söz və cümlələrin funksional imkanları ilk baxışdan məhdud görünsə də, funksional üslubi xüsusiyyətləri olduqca genişdir. “Bunlar öz funksiyasına görə fərqlənərək iki növə ayrılır: a) ara konstruksiyalar; b) əlavə konstruksiylar”. Onların xüsusiyyətləri genişlənmiş cümlənin sintaqmatik cəhətdən digər komponentləri ilə bərabər öyrənilir, müqayisə edilərək qarşılaşdırılır. Bunların içərisində xitablarla, nidalarla yanaşı qoşulma konstruksiyalara çox rast gəlinir. Qoşulma konstruksiyaların öyrənilməsi həm də mürəkkəb cümlələrin təsnifi üçün də əhəmiyyətlidir.

Belə ki, qoşulma əlaqəli tabesiz mürəkkəb cümlə, qoşulma budaq cümləsinin tədrisi zamanı əksər hallarda qoşulma konstruksiyalar vurğulanır, onları fərqləndirməyin üsulları qeyd olunur. Ara sözlər, cümlələr, ara konstruksiyalar, qoşulma konstruksiyaları, xitablar bir sıra xüsusiyyətlərinə görə bir-birinə çox bənzəyən, yaxud da sinonim ifadələr olan, bəziləri isə tamamilə fərqlənən bu vahidləri birləşdirən cəhət aid olduğu cümlə mühitində sintaktik cəhətdən əlaqələnməməklərinə baxmayaraq, məna formal baxımından cümlədə olub sintaktik baxımından cümlədən kənar olur, daxili mənanın ifadəsində iştirak edə bilməyir, amma daxili mənaya kənardan münasibət bildirir, məna çaları yaradır.

***Açar sözlər:*** *ara söz, ara cümlə, kommunikativ kateqoriya, modallıq kateqoriyası, qoşulma konstruksiyası*

**Sevinc Karimova**
Baku Slavic University
PhD in Philology
https://orcid.org/0009-0003-5061-8968
sevinc.karimova.1985@mail.ru

# A Communicative and Paradigmatic Approach to Parenthetical Words and Sentences

**Abstract**

Contemporary researchers emphasize the category of modality as one of the most crucial elements of the communicative category and present parenthetical sentences (constructions) as the primary means of expressing it. Researchers’ interest in studying syntax from a communicative perspective is associated with giving importance to extralinguistic factors in modern language.

This direction, as in several other linguistic fields, has also started to gain relevance in the study of modality. Although the functional capacity of words and sentences may seem limited at first glance, their stylistic-functional features are quite extensive. Their properties are studied along with other components of the expanded sentence from a syntagmatic perspective and are compared and contrasted accordingly. Among these, in addition to vocatives and interjections, conjunctive constructions are frequently encountered. The study of conjunctive constructions is also significant for the classification of complex sentences.

In particular, during the teaching of asyndetically connected compound sentences and subordinate conjunctive sentences, conjunctive constructions are often highlighted, and methods of distinguishing them are noted. Parenthetical words, sentences, constructions, conjunctive constructions, and vocatives—although some are very similar or synonymous in nature and others entirely different—share the common feature that, despite not being syntactically connected to the main sentence environment, they exist within it from a semantic-formal perspective. They do not participate in the expression of the internal meaning but express an external relation to it, creating a nuance of meaning.

***Keywords:*** *parenthetical word, parenthetical sentence, communicative category, modality category, conjunctive construction*

## Giriş

Ara sözlər və ara cümlələr dedikdə ilk yada düşən modal sözlər, modal sözlərin də omonimlik təşkil etdiyi və yaxud modal sözlər üçün baza olan əsas nitq hissələri ilə qarşılıqlı münasibəti əslində məsələnin ən sadə və çox işıqlandırılan, elmi ədəbiyyatlarda əksini tapan hissəsidir. Ara söz və cümlələr üçün material olan çoxlu sayda fərqli və maraq doğuran vahidlər var ki, ümumi şəkildə onların üzərindən keçməyə çalışdıq əldə etdiyimiz qənaətə görə bu vahidlərin hər biri bu və ya digər şəkildə, tamamilə və ya qismən frazeojiləşməsi, daşlaşması, tərkibinin sabitləşməsi və idiomatikləşməsidir (Kərimova, 2022). Frazeojiləşmiş cümlə anlayışı çox geniş və predmeti mübahisə doğuran terminlərdəndir. Amma bu terminə dar, yaxud geniş yanaşmadan asılı olmayaraq onlar arasında əlaqəni, oxşar cəhətləri, kəsişən məqamları görmək mümkün deyil. Növlərindən asılı olaraq frazeojiləşmə cümlələrdə yuxarıda qeyd olunan xüsusiyyətlərin nisbəti dəyişə bilər, sabitliyin dərəcəsi müxtəlif ola bilər. Emosionallıq, ekspressivlik, modallıq, subyektiv yanaşma, fikrin informativ yükdən daha çox, poetik funksiya daşıması və hiss duyğunu çatdırılmasına xidmət etməsi frazeojiləşmiş cümlə konstruksiyalar ilə ara cümlələrin kəsişmə diaqramını təşkil edir.

**Tədqiqat**

Ara sözlər, cümlələr, ara konstruksiyalar, qoşulma konstruksiyaları, xitablar bir sıra xüsusiyyətlərinə görə bir-birinə çox bənzəyən, yaxud da sinonim ifadələr olan, bəziləri isə tamamilə fərqlənən bu vahidləri birləşdirən cəhət aid olduğu cümlə mühitində sintaktik cəhətdən əlaqələnməməklərinə baxmayaraq, məna formal baxımından cümlədə olub sintaktik baxımından cümlədən kənar olan, daxili mənanın ifadəsində iştirak edə bilməyən, amma daxili mənaya kənardan münasibət bildirir, məna çaları yaradır. Fikrimizi poetik şəkildə ifadə etsək, onlar cümlədə iştirak edən, amma cümlə üzvü ola bilməyən ögey üzvlərdir. "Ögey" üzvlərin cümlədə yeri haqqında danışarkən sərbəst olduqlarını və cümlənin istənilən yerində işlənə bildiyini qeyd edəcəyik ki, əksər elmi ədəbiyyatlarda bu xüsusiyyət qrammatik cəhətdən cümlə üzvü olmayan vahidlərin əsas əlaməti kimi qeyd olunur. "Ara söz və ümumiyyətlə, qrammatik cəhətdən cümlə üzvləri əlaqədar olmayan sözlər cümlə üzvləridir. əlbəttə, onlar baş və ikinci dərəcəli üzvlərin funksiyasını yerinə yetirmir. Ona görə də bunları cümlənin ikinci dərəcəli üzvləri adlandırmaq daha məqsədəuyğun olardı" (Seyfullayev, 1972, s. 61-69). Lakin məna xüsusiyyətlərini incələyərkən aydın olur ki, nə qədər kiçik də olsa, amma əhəmiyyətli fərqlər hiss olunur. "Azərbaycan dilçiliyində ara söz və xitablar qrammatik cəhətdən cümlə üzvləri ilə bağlı olmayan sözlər" adı altında öyrənilmişdir. Müəyyən izahlarda xitab və ara sözlərin qismən də olsa cümlə üzvləri ilə bağlandığı qeyd olunmuşdur" (Orucova, 2007). Adətən cümlənin əvvəlində işlənən ara söz bütün cümləyə və cümlə üzvlərinə münasibət bildirmiş olur, amma cümlənin daxilə doğru irəlilədikcə konkret olaraq yanaşı işləndiyi cümlə üzvünə münasibət bildirmiş olur.

Modallıq eləcə dilin nisbətən yaxın vaxtlardan bəri tədqiq edilən praqmatik xüsusiyyətinə ən çox yaxın olan kateqoriyalardan biridir... dilə praqmatik aspektdən yanaşma bu kateqoriyanın təzahür formalarının asanlıqla aşkar olunmasını təmin edir (Cahangirov, 2005, s. 9). Belə bir əlaqə şüur səviyyəsindən dil səviyyəsinə də keçir, şüurda aralarında əlaqə yaradılan anlayışlar dildə də proyeksiyasını tapır, hətta şüurda bəzən yayğın ola bilən əlaqələr dildə əksinə, dəqiq, möhkəm forma, çərçivə şəklində, qapalılıq şəraitində inkişaf etməyə başlayır. Belə bir inkişafa başlayandan sonra cümlə o biri, orta mərhələyə keçir (Abdulla, 2016). Son illərdə dünya dilçiliyində ara söz və cümlələrlə bağlı yeni konstruklar müəyyənləşmiş, fərqli konsepsiyalar irəli sürülmüşdür. Bu konsepsiyaların əsasında müasir dilçiliyin mühüm problemlərindən biri - İnsan və dilin qarşılıqlı əlaqəsi və ya insan (təfəkkürü, düşüncəsi, psixoloji vəziyyəti, intellektual səviyyəsi, zövqü, ətrafa aləmlə qarşılıqlı münasibəti və s.) dildə məsələsi dayanır. Bu da haqqında danışdığımız dil vahidlərinin kommunikativ imkanlarını və praqmatik xüsusiyyətlərini öyrənməyi aktuallaşdırır. Az öncə qeyd etdiyimiz kimi, nitqdə kateqorial cəhətdən fərqlənən ara söz və cümlələr və qoşulma elementlər də mövcuddur. Kommunikativ praqmatik nöqteyi-nəzərindən ara söz və cümlələr söyləmin (cümlə) elementidir və danışanın münasibətini ortaya qoyaraq modallıq yaradır. Qoşulma konstruksiyalar isə sadə cümləni genişləndirən vasitə olmaqla kifayətlənməyib mürəkkəb cümlə səviyyəsinə qədər yüksələ bilir və xüsusi sintaktik hadisə sayılır, hətta mürəkkəb cümlənin sərhədlərini də aşır. Əgər ünsiyyəti informasiyanın, hiss və duyğuların mübadiləsi kimi qiymətləndirsək, bu fəaliyyət (ünsiyyət) üç elementdən ibarət olur: kommunikasiya, qarşı tərəfə təsir və qəbul etmə.

Ara söz və cümlələrin kommunikativ və praqmatik cəhətdən analiz etdikdə onları konkret cümlə (söyləm) və mətn daxilində araşdırmalıyıq. Danışanın kimə? və nə məqsədlə? Fikrini bildirməsi çox önəmlidir. Danışan şəxsin ən birinci məqsədi informasiyanı çatdırmaqdır, lakin bəzi cümlələrdə emosional təzahür məlumatı üstələyir və bu zaman cümlə bütövlükdə danışanın mənəvi aləminin, sosial-psixoloji varlığının üzə çıxmasına yönəlir (Kərimova, 2022, s. 121). Buna da ara söz və cümlələrin modallıq bildirmə imkanları da fərqli şəkildə özünü göstərir. Modal münasibət subyektiv yanaşma ilə məhdudlaşmayıb danışan tərəfindən qeyri-iradi olaraq da cümləyə artırıla bilər, yaxud ünsiyyəti təmin etmək, qarşı tərəfi kommunikasiyaya cəlb etmək, maraq yaratmaq, səmimiyyət yaratmaq, toxunulacaq mövzunun əhəmiyyətlilik dərəcəsini göstərmək məqsədilə, danışanın şəxsi keyfiyyətlərini bilavasitə ifadə etmək üçün işlədilə bilər. Çox zaman sonra ara söz və cümlələr məna növlərinə, semantik məna qruplarına ayrılarkən insanın iradi münasibətinə əsaslanır (Kərimova, 2013). “Müəllif modallığının əsasını münasibət, qiymətləndirmə və baxış bucağı təşkil edir” (Romanova, 2008).

Fikrimizcə, onların ən maraqlı tərəfi danışanın öncədən, planlamadan, qeyri-iradi, yüksək hiss və həyəcanın, emosiyanın təsiri altında istifadəsi, söyləmin komponentinə çevrilməsidir. Məsələyə psixoloji tərəfdən yanaşdıqda bu ifadələr insanın hiss və duyğularını manipulyasiya etməyə adresatı ələ almağa, təsir altına salmağa, informasiyanın əhəmiyyətini artırmağa, azaltmağa, qarşı tərəfin məlumatı daha adi və rahat şəkildə qəbul etməsində vasitə ola bilər. Müxtəlif elmi ədəbiyyatlarda məna çalarlarına görə neçə qrupa bölünməsindən asılı olaraq onları ümüumi şəkildə 2 cür qruplaşdırmaq olar: mənfi və müsbət emosiya ifadə edənlər. Təbii ki, mənfi və müsbət anlayışları nisbilik təşkil edir. Hər ara söz, yaxud ara cümlə birbaşa yaxşı və ya pis bildirmir, lakin münasibət onların məzmununda kodlaşmışdır və sözün mənasının alt qatında mənfi və ya müsbət emosiya gözlənir.

Nitq aktında bu söz və söz birləşmələrindən, cümlə konstruksiyalarından bəhs edərkən onların əsasən dinləyəndə (oxuyanda) – qarşı tərəfdə yaratdığı təəssüratı, fikri əsas tutur, adresatın reaksiyasına, təfəkküründa inikasını yönəlirik. Amma unutmaq olmaz ki, ara söz və cümlələr ilk növbədə danışanın da emosional vəziyyətinin ifadəsidir və bəzən danışan şəxsin məlumatı səsləndirərkən bu ifadələri işlətməyə ehtiyacı olur və bu şəkildə özünü ifadə etmiş olur, qarşı tərəfdə özünə qarşı müəyyən hisslərin yaranmasına ehtiyac duyur və əslində bu və ya digər şəkildə danışan şəxs haqqında da bizdə müəyyən bir təəssürat yaratmış olur.

Ara söz və cümlələrin nitq axınında əsas funksiyası modallıqdır. “Nisbi fikir bitkinliyi, məzmunun konkretliliyi cəhətdən ara cümlələr ara sözlərdən ayrılır” (Qrammatik cəhətdən cümlə üzvləri ilə

əlaqədar olmayan sözlər, 1958, s. 64). Əksər tədqiqat işlərində qeyd olunan tərifə əsasən, ara sözlər nitqin axıcılığını pozan, formal-qrammatik cəhətdən daxil olduğu cümlə ilə əlaqələnməyən, düşdüyü mühitdə qrammatik cəhətdən aid olmayıb, lakin münasibət bildirən söz, ifadə və cümlədir. Danışan şəxs söylənilən fikrə münasibət bildirməklə həmin fikrin onun olmadığına, ona aid olmadığını bildirir.

Adətən hər bir cümlənin müəllifi (söhbət informasiyanın kimə məxsus olduğundan gedir) danışanın özüdür. “Subyektiv modallıq sferasına danışanın mövqeyni ifadə ara söz və birləşmələr aiddir. Belə ki bu predikatlar subyektə aid olmamalı və onun heç bir morfoloji əlamətini daşımamalıdır, sırf müəllif yanaşmasını əks etdirməlidir” (Bondarko, 1983, s. 101). Lakin ara sözlər hesabına genişlənmiş sadə cümlələrdə ara söz danışanın özünə, cümlənin digər hissəsi isə götürdüyü mənbəyə aid olur. Sanki danışan özgə fikrini əhatə edir. Başqa cür desək, ara söz (cümlə) subyektiv, iştirak etdiyi cümlə isə obyektiv reallığı bildirir.

Deməli, ara sözlərin cümlədə kənarlaşdırılmasının, qrammatik cəhətdən cümlə üzvləri ilə əlaqəsinin olmamasının səbəbi də həmin cümlədəki məlumata görə olması ilə bağlıdır. Nitqin axıcılığını (geniş mənada) pozan iki vahiddən ara sözlər və qoşulma konstruksiyalardan birinci modallığın ifadəsi ilə bağlıdır. Belə ki, ara sözlər, söz birləşmələri, cümlələr onlar üçün spesifik yeganə ortaq xüsusiyyət ilə birləşirlər ki, bu da onları modallıq bildirən digər vahidlərlə əks mövqeyə qoyur. Bu onların hər zaman məlumatı söyləyənin (yazanın) mövqeyi ilə xarakterizə edir, danışanın fikrini cümləyə birləşdirir. Bu səbəbdəndir ki, ara sözlər ilə modallıq anlayışı çox vaxt paralel səslənir. Bir tərəfdən modallıq konkret bir kateqoriya kimi nəzərdə tutulur, digər tərəfdən modal sözlər daha çox cümlədə ara söz funksiyası yerinə yetirdiyindən belə bir assosiasiya yaranır. Tədqiqat işinin əsas hissəsində də qeyd etdiyimiz kimi bu anlayışlar arasında bərabərlik işarəsi qoymaq, həmçinin onları eyni bir kateqoriyası hesab etmək olduğunu düzgün olmaz. Onlar haqqında geniş danışdığımızdan və aralarında fərqləri yetərincə qeyd etdiyimizdən bizim üçün əsas hədəf olan sintaktik kateqoriya olan ara söz və cümlələrin əsas əlamətdar xüsusiyyətlərini ümumiləşdirmək istədik. Bəzi ədəbiyyatlarda onların “müəllif” sözü adlandırılması da təsadüfi deyil.

Xüsusilə bədii əsərlərdə bu ifadələrin rolu artır, müəllifin fikrini mətnaltı şəkildə ifadəsini təmin edir. Müəllif sözü də nisbi xarakter daşıyır. Müəllif hər hansısa mətni-əsəri yazan şəxs, bu zaman müəllifin özünü ifadəsini, fikirlərini çatdırmağı üçün daha geniş imkanları vardır. İkinci-dar mənada isə hər bir cümləni söyləyən şəxs onun müəllifidir, bu zaman onun bir funksiyası məlumatı çatdırmaqdırsa, ara söz işlənmiş cümlələrdə ikinci funksiyası da informasiya münasibət bildirmək, təsdiq və ya inkar etmək, müsbət və ya mənfi fikir bildirmək və ümumilikdə bu semantika altında şəxsi mövqeyini ortaya qoymaqdır. Müasir dilçiliyimizdə nitq aktının öyrənilməsinin aktual olduğu bir dövrdə ara söz və cümlələr nitqin vacib komponenti kimi öyrənilir və burada kommunikativ aspekt aparıcıdır. Kommunikativ aspektlərin özünün ara sözlər qarşısında qoyulan tələblər var.

1. Nitq vasitəsilə məlumatın predmetini adlandırmaq;
2. Bu məlumata müvafiq informativ yük əlavə etmək;
3. Bu informasiyanın gücü ilə adresata təsir etmək.

Belə nitq aktın ara sözlər təəccüb, təxmin etməmə, təəccüb, etiraf, qorxu, həyəcan, kinayə, istehza, təlqin, xəbərdarlıq, hiddət, qəzəb və onlarla belə müxtəlif çalarlarla zənginləşdirmiş olur. Bu məsələnin kommunikativ tərəfidir. Eyni bir cümləyə praqmatik aspektdən yanaşdıqda isə ara sözlər bu zaman xüsusi texnikası kimi dəyərləndirilir, cümlə əsas mətn və əlavə olunmuş mətnə ayrılır.

Hər bir cümləyə öz-özlüyündə mikromətn kimi yanaşsaq, bu zaman belə cümlələrdə mətn işarəsində mətn adlandırmaq olar. Rus dilçilərinin bu barədə yazılan əsərlərinə nəzər saldıqda xüsusi mətn və metamətn ifadələri ilə qarşılayırıq. Bunlardan biri cümlənin özü informativ yükü, digər isə ara söz, cümlələrin ifadə etdiyi münasibət ekspressivlilik. Deməli, hər bir ara söz münasibət bildirməklə yanaşı həm də informasiya verir. Bir cümlə daxilində iki informasiya sıxlaşdırılır. Əsas cümlə obyektiv reallıq haqqında, artırılan hissə isə əsas cümlə barədə subyektiv məlumat verir. Obyektiv reallıq haqqında subyektiv məlumat ara söz və cümlələrin praqmatik aspektdən ən birinci funksiyasıdır.

## Nəticə

Ara söz və cümlələrin işlənmə arealı demək olar ki, bütün funksional üslubları əhatə edir. Təbii ki, bura bütün ara sözlər daxil deyilir. Onların məna növləri və ifadə vasitələri onları konkret üslublar üçün müvafiq edir. Ara söz dedikdə ilk ağla emosionallıq, ekspressivlik gəlir. Bu terminlər də bədii üslub ilə assosiasiya olunur. Ona görədir ki, böyük mətnlərdə-əsərlərdə ara söz və cümlələr müəllif sözü də adlanır. Belə izah olunur ki, müəllif verilən cümlələrə münasibətini məhz bu ifadələr vasitəsilə bildirir, vəziyyəti qiymətləndirir.

Bu zaman təhkiyə iki planda davam edir. Müəllim yanaşması alt qatda, cümlə üzvi olmadan əsas mətnlə irəliləyir və individuallaşır (Kərimova, 2022, s. 85). Əslində bədii ədəbiyyatda nitqi fərdiləşdirməyin müxtəlif yolları var. Lakin linqvistik baxımdan müəllif nitqini onun sintaksisini araşdırmalı olsaq, bu məsələ önəm kəsb edir. Digər baxımdan mətnin komponentlərini əlaqələndirmək, onları istər semantik, istər də qrammatik cəhətdən əlaqələndirməyə xidmət edir.

Bədii və publisistik mətnlərin araşdırılması göstərir ki, yazıçının estetik elementləri yalnız leksemlərlə, fəlsəfi terminlərlə, müxtəlif bədii təsvir və ifadə vasitələri ilə məhdudlaşmır, müxtəlif sintaktik vahidlərin, konstruksiyaların da köməyi ilə reallaşır, müəllifin fərdi dünyagörüşünü ifadə edir, mətnə estetik balans gətirir.

## Ədəbiyyat

1. Abdulla, K. (2016). *Azərbaycan dili sintaksisinin nəzəri problemləri*. MTM-İnnovation.
2. Bondarko, A.V. (1983). *Prinsipi funksionalnoy qrammatiki i voprosı aspektoloqii*. Nauka.
3. Cahangirov, F.F. (2005). *İngilis və Azərbaycan dillərində modallığın struktur-semantik təhlili.* Elm.
4. Kazımov, Q. (2007). *Müasir Azərbaycan dili. Sintaksis.* Təhsil.
5. Kərimova, S.T. (2013). Sintaktik frazeoloji konstruksiyaların bəzi qrammatik və məna xüsusiyyətləri haqqında. *Dil və ədəbiyyat*. Bakı, ADU, №3, s.30-34.
6. Kərimova, S.T. (2022). *Müasir Azərbaycan dilində sintaktik frazeoloji konstruksiyaların funksional-üslubi xüsusiyyətləri*. Dissertasiya. Sumqayıt.
7. Kərimova, S.T. (2022). Sintaktik frazeoloji konstruksiyaların bədii ədəbiyyatda rolu. *Elmi il.* Zəngəzurda.
8. *Qrammatik cəhətdən cümlə üzvləri ilə əlaqədar olmayan sözlər*. (1958). Bakı, ADU nəşriyyatı, 73s.
9. *Müasir Azərbaycan dili. Sintaksis* (1981). III cild. Elm.
10. Orucova, Ş.Ə. (2007). *Türk dillərində xitab.* Avtoreferat. Bakı.
11. Romanova T.V. (2008). *Modalnost.Osenka. Emosionalnost.* Monoqrafiya. Nijnıy Novqorod.
12. Seyfullayev, A.R. (1972). *Vvodnıye çlenı v sovremennom uzbekskom literaturnom yazıke / v kn: "Voprosı turkskix yazıkovi vzaimootnoşeniya ix s druqimi yazıkami"*. Baku.